AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 63-76
https://doi.org/10.59849/2664-5432.2026.2.63

Nərgiz HACIYEVA*

NİTQ QÜSURLARINDAN BƏDİİ ƏDƏBİYYATDA İSTİFADƏ İMKANLARI

XÜLASƏ

Nitq qüsurları müxtəlif mənbələrdən: ana bətnindən, sonradan olan travmalardan, autizmdən, hətta ikidillilikdən meydana çıxa bilir. Bu qüsurlar yalnız fizioloji-psixi xəstəliklə bağlı deyil, burada müəyyən məqamdakı hiss-həyəcanın, insanın müvəqqəti durumunun da rolu vardır. Nitqi qüsurlu insanlarla münasibət cəmiyyətimiz qarşısında duran əsas məsələlərdəndir. Bu məsələ ilə müxtəlif peşə adamları: psixoloqlar, loqopedlər, filosoflar, dilçilər və b. məşğul olurlar. Nitqin ümumi inkişafdan geri qalmasının müxtəlif səbəbləri və növləri müəyyənləşdirilir. Nitq pozuqluğunun bir növü olan kəkələmə səs uzanması, səs tutulması kimi hallarla meydana çıxır. Yazıçılar obrazı tipikləşdirmək, bəzən də komik effekt yaratmaq üçün nitq qüsurlarından istifadə edirlər. Lakin nitq qüsurlarının yazılı dildə ifadəsinin lazımi şəkildə fərqləndirilməməsi dəqiq anlamanı çətinləşdirir.

Açar sözlər: *nitq qüsurları, afaziya, kəkələmə, nitq tutulmaları, səs uzanması, səs-parazit.*

Qloballaşan dünya, informasiya axınının bolluğu, rəqəmsallaşma və intellekt texnologiyalarının inkişaf etdiyi şəraitdə xarici kəlmələrin Azərbaycan dilinə sürətlə keçməsi zamanı dilimizin yad kəlmələrdən qorunması aktual məsələ kimi hər bir kəsin qarşısında dayanan problemlərdəndir. Azərbaycan dilinin saflığının qorunması, milli dilimizin inkişafı, onun yad kəlmələrdən təmizliyi barədə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları dəfələrlə sərəncamlar imzalayıb, qərarlar qəbul etmişdir. Onun 2026-cı il yanvarın 5-də dövlət televiziya kanallarına verdiyi müsahibəsində dilimizin yad kəlmələrdən, alınma sözlərdən təmizlənməsi, nitq mədəniyyətinin inkişaf etdirilməsi kimi məsələlər ön plana çəkilir, Azərbaycan dilinin öz sözləri hesabına zənginləşdirilməsi barədə tövsiyyələr verilir. Bu barədə dövlət başçısı yazır: ”Çox dil bilmək yaxşıdır, mən onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, bir öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da pozulandan sonra, ya da başqa dilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə də

* AMEA Nəsimi adına Dilçilik İnstitu, Müasir Azərbaycan dili və nitq mədəniyyəti şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent. Email: nergiz.haciyeva.1961@mail.ru

Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm.”

Bu cəhətdən nitq mədəniyyətinin həyatın hər bir sahəsində inkişaf etdirilməsi, uşaq yaşlarından şagirdlərin ana dilinə, nitq mədəniyyətinə yiyələnmələri üçün onların dəqiq, səlist nitqə, zəngin söz bazasına malik olmaları lazımdır. Təmiz, səlis danışıq üçün nitq səhvlərindən, nitq defektlərindən uzaq durmaq, öz nitqini zənginləşdirmək hər bir vətəndaşın vəzifəsidir.

Belə nitq qüsurlarını tədqiq edən sahələrdən biri də nitq mədəniyyətidir. Nitq mədəniyyətinin tədqiq etdiyi məsələlərdən biri də nitq defektləridir.Nitq defektlərinin meydana çıxması müxtəlif səbəblərlə bağlıdır. Bu cəhətdən ana bətnindən gələn, sonradan müəyyən travmalar nəticəsində meydana çıxan, autizm zamanı, hətta ikidillilik şəraitində qazanılan və s. səbəblərdən əmələ gələn nitq defektləri cəmiyyəti, o cümlədən müvafiq sahə alimlərini daim maraqlandıran məsələlərdəndir. Qeyd etmək lazımdır ki, bu məsələ ilə bağlı tibb və psixologiya elmlərində zəngin ədəbiyyat vardır, lakin dilçilik elmi haqqında, xüsusən də Azərbaycan dilçiliyi haqqında eyni fikri söyləyə bilmərik.

Nitq – dil vasitəsilə insanların ünsiyyət vasitəsi olub, insanın psixi fəaliyyətində xüsusi yer tutur: o, dünyanı insanların birgə fəaliyyətində vacib olan nitq formasında əks etdirir. Nitqə bu funksiyalar aiddir: ümumiləşdirmə, işarətmə, ünsiyyət, təsiremə və ifadə. Nitqin funksiyalarının sadalanması onun insan fəaliyyətində nə qədər mühüm rol oynadığını göstərir. Nitqə yiyələnmə insanın əqli inkişafında mühüm əhəmiyyət kəsb edir. Nitqin inkişafı insanın təfəkküründün inkişafı ilə sıx bağlıdır: nitqdən kənar o inkişaf edə bilməz. Nitq digər psixi proseslərin inkişafı üçün də mühüm əhəmiyyət kəsb edir: qəbul etmə, yaddaş, təsəvvür etmə, habelə fərdi-psixoloji xüsusiyyətlərin formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. Bizim duyğularımızı, düşüncələrimizi, hisslərimizi, hərəkətlərimizi və digər funksiyalarımızı idarə edən beyin ünsiyyət sistemi olan dili də idarə edir. Elə bu səbəbdən də dilçilik elmi ünsiyyət modelini, onun mexanizmlərini neyrolinqvistik çərçivədə təhlil edir. Müasir dünyamızda nitq pozuntularını və dəyişikliklərini, onların əmələ gəlmə səbəblərini və bərpa etmək yollarını dərin linqvistik təhlil olmadan tədqiq etmək və öyrənmək qeyri-mümkündür. Neyrolinqvistikanın tədqiqat sahəsi dil və beynin qarşılıqlı əlaqələrindən bəhs edir. H.Eminlinin tədqiqatının ikinci fəslinin əsas məsələsi afaziyalı xəstələrin dilinin fonetik, qrammatik və leksik səviyyələrində nitq dəyişmələrini müşahidə etməkdir. O yazır ki, nitqin yaranması prosesinin pozulması tiplərindən biri fonetik afaziyadır. Bu qrupa fonetik motor afaziyanı daxil etmək olar. Afaziyanın bu forması beyin qabığının aşağı əmgək nayihəsinin zədələnməsi zamanı meydana çıxır. Fonetik afaziya zamanı nitqin başa düşülməsi qorunur, lakin xəstənin ekspressiv nitqi, yəni nitqin yaranması prosesi pozulur. Fonetik afaziyalı xəstə söz və səsləri tez və gərginlik keçirmədən tələffüz edə bilməsi bu məqamda bir səsin əmələ gəlmə yerinə və üsuluna görə ona yaxın başqa səslə əvəzlənməsi baş verir.(b-p, d-t-l-n, v-f, p-m və s.)beynin ağır zədələnməsi zamanı bir-birindən çox fərqlənən fonemlərin

qarışdırılması baş verir. Xəstələr partlayan, novlu, dilönü, dilortası, dilarxası, kar və cingiltili samitləri qarışdırırlar. Məs: meydan-medyan, deməli-deməni, şagird-şagit və s. Fonetik motor afaziya zamanı dilin paradiqmatik quruluşu fonetik səviyyədə pozulur və bunun nəticəsində nitqin sintaktik təşkili qeyri-mümkün olur, yəni dilin sintaqmatik quruluşu da pozulur. Hər bir afaziya sindromu həm nitq qabiliyyətinin və funksiyalarının, həm də təfəkkürün pozulmasından ibarətdir. Ona görə də uşaq afaziyası problemi nəinki uşağın nitqi ilə əlaqəli, həmçinin onun təfəkküründə gedən proseslərlə əlaqəli müzakirə obyektinə çevrilməlidir. Uşaq üçün nitq yeni əldə edilmiş bir nailiyyətdir və eyni zamanda bu yaxınlarda mənimsənilmiş bir qabiliyyətdir. Uşaq öz nitqini sinir sistemi pozulmadan və beynin lokal zədələnməsi baş vermədən də itirə bilər. Bu, bir çox səbəblərdən, ciddi soyuq dəymədən, qızdırmadan, hətta həyəcandan belə baş verir. Eminli H. qeyd edir ki, bu nitq pozuntularını həqiqi afaziya qrupuna daxil etmək doğru olmazdı. Qeyd etmək lazımdır ki, böyüklərdə dilin təfəkkürlə əlaqəsi uşaqlardakı bu prosesdən fərqlidir. Bu nitq qüsurlarını aradan qaldırmaq da daha asandır. Müəllif belə qənaətə gəlir ki, uşaq nitqinin öyrənilməsi böyüklərdə afaziya probleminin tədqiqinə və nitq pozuntularının aradan qaldırılmasına kömək edə bilər [Eminli: 2008, s.21].

Bədii ədəbiyyatda yazıçılar belə nitq defektlərindən çox istifadə edərək, surətin danışığında bir səsi digər səslə əvəz edərək, surətlərin danışığındakı səhvləri norma pozuntusu kimi deyil, üslubi vasitə kimi surəti tipikləşdirmək məqsədilə qeyd edirlər. Məsələn: Onlar sırğa eləyib qulaqlarından asmalıdırlar, bilməlidirlər ki, təmizlik sağlamlığın rəhmidir...-Rəhmidir yox, rəhnidir!- Yuxarı kurs tələbələrindən biri komendantın yanlışını düzəltdi (K.Əşrəfoğlu, "Daşlı qala); Tartan Partanov ən səfeh alimlərdəndir əvəzinə "Tartn Partanov ən fəsih alimlərdəndir" oxunmalıdır; Cavanlarımız gözəl kifirlərlə yaşayır əvəzinə, "Cavanlarımız gözəl fikirlərlə yaşayır" oxunmalıdır (Anar, "Sizi deyib gəlmişəm"); Durna. Bu ki alacadır. Dursun. Balacadır?!...Düz deyirsən. Durna. Balaca yox, alaca. (S.Rüstəm, "Durna") və s .

Bu misallarda "rəhm-rəhn", "kifir-fikir", "balaca-alaca" sözləri qarşılaşdırılaraq paronimik attraksiya yaradılır.

Nitq qüsurları içərisində sözlərin yaxşı eşidilmədiyindən və ya alınma sözləri anlaşılmazdığından səhv deyilməsi faktı da mühüm yer tutur. Sözlər səs tərkibinə görə onlara yaxın mənalı və ya mənasız sözlərlə əvəz edilir ki, budan bədii əsərdə komik effekt yaratmaq üçün istifadə edilir. Bədii ədəbiyyatda komik anlaşılmazlıq üsulundan istifadə də nitqin düzgün başa düşülməməsini üzə çıxardır. Məsələn: Sol əlimlə dodaqlarımı bir-birindən zorla ayırıb danışmağa başladım:– Bu gün bizim təzəgəlin konfit... Redaktor cin atına mindi: –Adə! Yenə gəlin? Yenə konfet?!

Səfər müəllim dəstəyi yerinə qoymaq istəyənə əlindən asılı qaldı. Konfitürdən idi (S.Qədirzadə, "Evlənəndə tələsməyin").

Burada “konfitür” sözünü “konfet” kimi başa düşən redaktorun sözləri komik anlaşılmazlıq yaradır.

Yaxud: Ancaq çox adam var ki, ət yemir, ancaq qərnirnən dolanır, yəni vəgətirən. Küncəvoy da odur ki, düz qapıdan girməyən topları gərək hardan tora salasan balıq kimi? – Vətəgədən! – Küncdən!...Vətəgə nədir, ay Absatəli?– Bayaq özün dedin də Kəncüm qardaş!–Hi-hi-hi...Vətəgə yox, vəgətirən, yəni ət yeməyən; Şahtağı əllərini qarnı üstə gəzdirdi:–Sən nə danışırsan, ada? Şahtağısız futbol olar?-Yəni, sən də o zadkeşlərdənsən: – Dudkeş özünsən! Ağıllı danış. Mən azarkeşəm (S.Dağlı, “Vergülağa Nöqtələrov”); Nadir.Yoldaş Qoxmzaov, sizi bir məsələdən xəbərdar etməliyəm ki, mən janr etibarilə karikaturistəm. Qorxmaov.Necə, necə, qarğaturist?..İstəyir lap çalağanturist ol,....ancaq...Nadir. Nə qarğaturist, nə çalağanturist, mən karikaturistəm...Qorxmazov.İnsan gərək həmişə partirot olsun. Nadir. Portret? Qorxmazov. Xeyr, partirot, yəni vətənbaz.... (S.Rüstəm, “Gəldi-gedər”).

Bu misallarda “vegeterian” sözü “vətəgə” kimi, “zadkeş” sözü “dudkeş” kimi, “karikaturist” sözü “çalağanturist, “malağanturist” kimi, “portret” sözü “partirot” kimi tələffüz olunur və anlaşılır.

Bədii ədəbiyyatda qəhrəmanın nadanlığını, savadsızlığını üzə çıxarmaq üçün yazıçılar komik anlaşılmazlıq üsuluna əl atır, görkəmli şəxslərin, yazıçı və şairlərin adları norma pozuntusu kimi təhrif olunaraq işlədilir ki, bu da yazıçı tərəfindən qəsdən edilən nitq səhvləridir. Məsələn, S.Qədirzadənin “Eloğlu” hekayəsində savadsız surət tərəfindən şairə Xurşidbanu Natəvanının adı “Xurşidbanova Natəvan” kimi verilir. Yazıçının “Metamorfoza” hekayəsində Böyük fransız yazıçısı Viktor Hüqonu can həkimi hesab edən surətin danışığı gülüş yaradır. Orada deyilir:”Qırx yaş – gəncliyin qocalığı, əlli yaş – qocalığın gəncliyidir”. Bu həkimanə sözləri Viktor Hüqo demişdir. İndi siz gəncliyin qocalığı ilə qocalığın gəncliyi arasında yaşayırsınız.– Doktor, məsləhət bilsəydiniz, bir ona da göstərərdim özümü. – Kimə? - O dediyiniz Viktora. Can həkimi deyil?

Yaxud böyük ingilis dramaturqu Şekspirin adını dəyişib xalq etimologiyasına uyğun işlətmək də komiklik və nitq qüsuru yaradır. Məsələn: Arada Şekspirin adını çəkəndə əlüstü söhbətə qarışmışdım: –Bilirsiz, Şekspir nə millətdir?... Şekspir xalis müsəlmandır. –Müsəlmandır? –Bəli, əsl adı da Şeyxi-Pirdir. Yəni, pirin şeyxi. On altıncı əsrin əvvəllərində bir tədqiqatçı onun haqqında monumental bir əsər yazır. Kitabının adını qoyub “Şeyx iz pira”.Sonra ingilislər kişinin ismini dəyişərək, Şekspir eləyib öz adlarına çıxıblar (S.Qədirzadə, “Şlyapalı Mauqli”); S.Rüstəmin “Gəldi-gedər” pyesində Qorxmazov deyir: Seyid Əzimov, Əlağa Vahidov, Xəyyamov burda yatır**,** Füzulov burda yatır.

Nitqin fiziologiyası məsələlərinə bir sıra böyük fizioloqlar toxunmuşlar [Ухтомский: 1959]. · Nitqin öyrənilməsinə, nitqin funksiyalarını patologiyasına və lokallaşmasına aid bir sıra əsərlər mövcuddur. [Лурия: 1955, с.78]. Nitq problemi məsələsinə ən müxtəlif peşə sahibləri diqqət etmişlər və bu məqsədlə müxtəlif

metodik üsullardan istifadə olunmuşdur (antropoloji, fizioloji, klinik, linqvistik, psixoloji və s.)

Nitqin pozulmasının afaziya forması, insanın ünsiyyət prosesinin patologiyası olaraq görkəmli nevroloqların diqqətini çəkmişdir. Onlar tərəfindən aparılan kilnik, klinik-avtomatik və kilnik-psixoloji tədqiqatlar bu sahədə qiymətli fikirlər ortaya çıxarmışdır [4]. Bu metodların köməyilə spesifik insan patologiyasında-nitqin funksiyalarının pozulmasında müəyyən nailiyyətlər əldə olunmuşdur. Alaliya nitq pozulmasının ağır formalarından biridir. Motorlu alaliya zamanı uşaq ona ünvanlanan nitqi tam başa düşür, lakin öz emosiyalarını ifadə etməkdə çətinlik çəkir. Bunun səbəbi dilin qrammatik quruluşuna malik olmanın çətinliyi və kiçik söz ehtiyatıdır. Sensor alaiya zamanı uşaq özgə nitqini tam başa düşmür, sözlərin mənası ilə əlaqəsini bilmir. Alaliya da, afaziya kimi mərkəzi sinir sisteminin tam olmayan mənbəyi ilə əlaqədardır. Afaziya zamanı normal formalaşan nitq mərkəzi sinir sisteminin oçaq mənbəyinin zədələnməsi zamanı ayrılır, alaliya zamanı nitqin patoloji formalaşması mərkəzi sinir sisteminin əvvəllər qazandığı tam olmayan şəraitindən əmələ gəlir. Afaziya və alaliyanın əsas yaranma mənbəyi – nitq pozuntusudur, buna görə bu hadisələri öyrənən tədqiqatçılar zərərli təsirin lokallaşması əlamətinə görə təsnifat aparıblar. [Левина: 1962]. V.K.Orfinskaya bunun səbəbini onda görür ki, son zamanlara qədər afaziya və alaliyanın tədqiqində dilçilər iştirak etmir, buna görə afaziya və alaliyanın nitqinin tədqiqi dilçilik xüsusiyyətlərinə malik deyil-nitqin sistem kimi ümumi qanunauyğunluqları nəzərə alınmadan nitq pozulmasının ayrı-ayrı simptomları tədqiq olunmuşdur.[Орфинская:1967,s.129-136]. Nitq pozuntuları hadisəsinə dizartriya (nitqin bütün tələffüzünün zədələnməsi), dislaliya (səsin qısaldılması, bəzi səslərin çıxarılmaması), rinolaliya (səslər burunda tələffüz olunur) da aiddir. Nitq pozulmasının bir növü də bradilaliya- asta, zəif xarici və daxili nitq, sözlərin tələffüzünün uzanması, monoton səs, səslər arasında pauzaların uzanmasıdır.Bradilaliyanın əksi olan taxilaliya adlı nitq pozuntusu hadisəsində sürətli nitq özünü göstərir. Belə sürətli nitqdə bəzi səslər buraxılır, nitq anlaşılmır. Taxilaliya kəkələməni yarada bilər. Aydındır ki, nitq defektləri bilavasitə fizioloji aktla bağlı olsa da, burada psixoloji, sosioloji və linqvistik amilləri kənar tutmaq olmaz. Bu amillər bir nöqtədə--nitqin qeyri-düzgün qurulması və fikrin ifadəsində qeyri-dəqiqliyin meydana çıxmasında birləşir və ona görə də bu amillərin birini digəri olmadan öyrənmək, qəti söz demək düzgün olmazdı. Belə ki, nitq pozuqluğu yalnız fizioloji-psixi xəstəliyin nəticəsi deyil, habelə sağlam adamın özündə müxtəlif emosional durumla bağlı, həyəcanlı anlarda bu fakt özünü göstərir. Elmi ədəbiyyatda kəkələmə ilə yanaşı, xarici tərəfdən kəkələməni xatırladan nitq tutulmaları da nitq qüsurları kimi qeyd olunur, belə ki, kəkələyənlərin nitqindəki tutulmalar və sağlam adamların nitqində xezitasiya tipli tutulmalar oxşar yerləşməyə malikdir və buna görə də eyni faktın təsiri ilə yaranır [Веccapт:1986, c. 38]. Hətta V.A.Kurşev sağlam adamlarda həyəcanlı anlarda olan nitq tutulmalarını da kəkələmə hesab edir [Куршев: 1973, c. 30-31].

Kliniki təsnifata görə aşağıdakı nitq qüsurları müəyyənləşdirilir: 1) Fonetik qüsurlar. Burada səslərin təhrif olunmuş şəkildə tələffüzü və ya heç olmaması nəzərdə tutulur. Bu qüsurlar dislaliya, dizartriya və rinolaliya kimi diaqnozlaşdırılır. 2) Nitqin itirilməsi və ya inkişafdan geri qalması. Buraya alaliya və ataziya daxil edilir. 3) Nitq sürətinin, ritminin və səlisliyinin pozulması. Taxilaliya, bradilaliya bu qisimdəndir.

Rus pedaqoqu P.E.Levina isə psixolinqvistik meyarlarla nitqin ünsiyyət vasitələrinin tətbiq edilməsinin pozulmasına görə nitq qüsurlarını iki böyük qrupa ayırır: Birinci qrupa fonetik-fonematik inkişafdan geri qalma və nitqin ümumi geriliyi daxildir. İkinci qrupa isə kəkələmə aid edilir. Bu qrupun əsasında dilin ünsiyyət vasitələrinin olmasına baxmayaraq, nitqin kommunikativ funksiyasının pozulması müşahidə olunur.

Nitq qüsurunun daha geniş yayılmış formalarından biri də kəkələmədir. Bu xəstəlik nitqdə qeyri-ixtiyari dayanmalar, səs və hecaların məcburi təkrarı ilə xarakterizə olunur. Kəkələmə zamanı bunlar müşahidə olunur: 1) nitq səsinin yaranmasına qədər artikulyasiya əzələlərinin xeyli ixtisar olunması; 2)sözün əvvəlindən və ya sonundan tələffüz zamanı qısalmalar; 3)verilən nitq parçasından asılı olaraq bu dəyişmələrin artması. Sözün tələffüzünün bütün məqamlarında zaman göstəricilərinin uzanması nitq hərəkəti analizatorunun funksiyasının pozulmasının nəticəsidir. Bəzi klinik tədqiqatlar kəkələmənin səbəbi kimi mərkəzi sinir sisteminin zədələnməsini göstərir. Bu zaman daha çox nitq qorxusu aparıcı simptomlardan olub, nitq ünsiyyətini çətinləşdirir, kəkələməni gücləndirir [Левина:1951, с.165-171].

Kəkələmə - özünəməxsus, nitqin diskoordinasion reaktiv (funksional) pozulmasıdır. Xarici cəhətdən nitq ritminin tutulma pozuntularında nevroloji və psixi dəyişmələrdə, xüsusilə emosional və iradi dəyişmələrlə əlaqədardır.[Хватцев: 1959, c.213]. M.E.Xvatsev qeyd edir ki, tutulmalar tonik (qısa tolçkoobraznıy və ya əzələlərin uzun spazmatik qısalması-tonus:t-opol) və ya klonik (ritmik, eyni əzələ hərəkətinin tutulmasının təkrarı – klonus:to-to-topol). Belə tutulmalarla adətən nitqin ayrı mexanizmləri deyil, bütün nəfəs-səs-artikulyasiya aparatı zədələnir, belə ki, onun funksiyası mərkəzi əsəb sistemi ilə idarə olunur. Nitqin bu və ya digər orqanlarında tutulmaların çoxluğuna görə üç tip kəkələmə ayrılır:nəfəs, səs və artikulyasiya. [Хватцев: 1959, s.217]. A.İbrahimov və H.Xəlilov kəkələmənin üç növünü qeyd edir:1)Təkrari (klonik) kəkələmə 2) avazi (tonik) kəkələmə 3)qarışıq tip kəkələmə [İbrahimov:2004, s.143].Təkrari kəkələmə zamanı uşaq kəlmələrin birinci heca və ya səslərini bir neçə dəfə təkrar edərək danışır. Bu cür kəkələmə ən çox uşaq yaşlarına aiddir ki, kəkələmənin başlanğıcında müşahidə olunur. 2)Avazi kəkələməsi olan uşaq sözə başlamaq istədiyi zaman danışmaq istədiyinə baxmayaraq, səs yarada bilməməklə üzü qızarır və çox gücənir, müxtəlif lüzumsuz, qeyri-iradi hərəkətlər edir və bir neçə dəqiqədən sonra bir neçə kəlmə və ya cümləni aydın söyləyib yenə o qayda ilə növbəti sözdə çətinliyə rast gəlir. Azərbaycan dilinin fonetk üslubiyyatında səslə məna arasında ahəngdar əlaqənin

təmin edilməsində səslərin məna çalarlığından geniş istifadə olunur. Ə.Dəmirçizadə bura səs cərgəsi, fonetik dialektizmlə birlikdə, fonetik kəkələməni də aid edir və göstərir ki, müəyyən üslubi məqsədlə mahir söz ustaları bu uzlaşmaların rəngarəng üsullarından öz əsərlərində istifadə etmişlər.Dəmirçizadə: 1962, s.55). Surətləri tipikləşdirmək məqsədilə , hər hansı bir şəxsin hiss-həyəcanını, qorxudan dilinin topuq çaldığını vermək üçün, xəstənin son nəfəsdə çətinliklə dediyi sözləri təsvir etmək üçün, sərxoş bir adamın danışığını, sözləri çətinliklə tələffüz etdiyini göstərmək üçün, uşaq dilinin şirinliyini, pəltəkliyini ifadə etmək üçün fonetik kəkələmədən istifadə olunur.

Kəkələmə zamanı müşahidə olunur:1) nitq səsinin yaranmasına qədər artikulyasiya əzələlərinin çoxlu ixtisarı 2) sözün tələffüzündən əvvəl və sonra bir çox qısaltmalar 3) verilən nitq məsələsindən asılı olaraq bu dəyişmələrin artması. Qeyd olunur ki, kəkələyənlərdə sağlam insanlara nisbətən əhəmiyyətli dərəcədə zaman münasibətlərində uzanma müşahidə olunur. daha spesifik dəyişmə, səsqabağı periodda olan zamandır. Sözün tələffüzünün bütün dövrlərində zaman göstəricilərinin uzanması nitq hərəkəti analizatorunun funksiyasının pozulmasını göstərir. Kəkələmə -nitqin spazmatik pozulmasıdır ki, nəfəsin, artikulyasiyanın və fonasiyanın diskoordinasion pozulmasını müşayiət edir. Nevrozlar sahəsində böyük mütəxəssislər uşaqlarda və böyüklərdə olan kəkələməni loqonevroz hesab edirlər. [Лебединский: 1960, с.215]. Belə ki, klinik tədqiqatlar göstərir ki, bir çox kəkələyənlərdə mərkəzi sinir sisteminin orqanik zədələri simptomu görünür [Мясищев:1960].

Kəkələyənlərdə, xüsusən böyüklərdə yarımçıqlıq hissi, öz gücünə inamsızlıq, emosional və nitq qorxusu var. Daha çox nitq qorxusu aparıcı simptomlardan biri olub, nitq ünsiyyətini çətinləşdirir, kəkələməni gücləndirir. [Шкловский:1967, с.165-171]

Məlum olduğu üzrə, tipiklik incəsənətin başqa sahələri üçün olduğu kimi bədii ədəbiyyat üçün də ölçüsüz əhəmiyyətə malik estetik kateqoriyalardandır. Ədəbiyyatdakı tipikləşdirmə isə, şübhə yoxdur ki, dilə də aiddir. Dövrümüzün əsas inkişaf meyllərini özündə əks etdirən, bu gündən daha çox parlaq gələcəyimizlə yaşayan və onu quran qəhrəmanların dili də onların yüksək mənəvi aləmlərini əks etdirməlidir. [Axundov: 1977, s.3-10]. Məlum olduğu kimi, nitq fəaliyyətinin əks olunması – bədii ədəbiyyatın obyektiv reallığının birbaşa əks olunmasının funksiyalarından biridir. Orfoqrafik modifikasiyaların əsas təyinatı – səsli nitqin bütün çoxcəhətli hadisələri zamanı personajın xüsusiyyətlərini açmaq vasitəsi kimi, danışan barədə, onun fərdi xüsusiyyətləri barədə əlavə məlumat vermək vasitəsi kimi çıxış edir. Qrafonun üslubi funksiyaları içində xarakteroloji funksiyanı ayıran L.L.Yemelyanova yazır ki, bu zaman qrafon kommunikativ akt, informasiyanın iştirakçıları və şəraitlə əlaqədar olaraq müəyyən üslubi effekt yaratmaq üçün əsas üslubi faktor ola bilər:yumoristik, ironik, satirik, yamsılama. Qrafonun funksional yükü eyni deyil. O, xarakteroloji və oposredovannıy funksiyaya malikdir. Birinci orfoqrafik ixtisarların dil təbiətinə malikdir, ikinci – orfoqrafik qısaltmalrın bütöv

mətnin bədii strukturu ilə qarşılıqlı əlaqəsinə əsaslanır.[Емельянова:1977, с.21]. Yazıda kəkələməni əks etdirmək üçün bəzən müəyyən səs hərflərin təkrarı ilə yazılır, nida, sual işarələri və nöqtələr qoyulur. Belə hallar kəkələmənin şərti şəkildə yazılan növündən sayılır. Şriftlərin ayrılmasını T.V.Şmelyova supraqrafemika, durğu işarələrinin istifadəsini –sinqrafemika adlandırır [Шмелева:2007, с.104-117]. Supraqrafemikanın fonoqrafik üsulları şriftin variantlaşmasının standart qrafik vasitələrinin istifadəsini təmsil edir və oxucu tərəfindən səsin ucalması və ya intonasiya vurğusu kimi interpretasiya oluna bilər. Bədii ədəbiyyatda istifadə olunan qəhrəmanın nitq xarakteristikasını vermək üçün sinqrafemika vasitələri-defis, apostrof, və çox nöqtədir. Onlar artikulyasiya ayrılmasını və ya nitqdə sözün "uzanmasını", onunla əlaqədar olan intonasiya və ya artikulyasiya ayrılması ilə əlaqədar olan (sa-bah), səslərin düşməsi (do,ğa), nitqin tempini və ya defektlərini vermək üçün və personajın emosional vəziyyətini vermək üçün istifadə olunur. Məsələn:Aslan....İstiqrazlar hardadır? Şəlalə.Nə? Aslan. Üçfaizli istiqraz? Şəlalə. Sa-ne-vu za-enterspa!...Yəni yaxşı eləyib xərcləmişəm, sənə nə? (S.Rəhman); Xoş gəl-misən!...Kərəm...Bə dedilər?.....(F.Eyvazlı); -Cavanşir....Ca-van-şir...-deyə Koxa boğuq səslə təkrar etdi.-Gözəldir.-Koxa...Ko-xa...Ko-xa...deyə öz adını da təkrar etdi.-Pisdir! Və birdən ayağa qalxdı.-Limbuz.Lim-buz...Bəs Limbuz necədir?(İ.Hüseynov).

Sait və samit səslərin uzanması: -Oo...nnnaaan da yooox, səəə...nnnən,- qız yenə boynunu da, əllərini də uşaq qarışıq atasına sarı uzatdı.- haaa...mı deee... yir... səəə...n öyrəəəə...dirsəə...n!; Qız bir xeyli kəkələyib:-Bi-irdən gee...rçək...ooo...lar-dedi; Qızının səsinə fikirdən ayıldı: -Qa-aa-yııt-mayacaq o! Ge-ee-t-di...!;Qız ağlaya-ağlaya bayaqkından da bərk qışqırdı:-Atam ee-ləəədi, aa-tamın üüzü-nnəəə-n əəə-r-siz qaaa-ldım (V.Nəsib).

Sait səslərin uzanması:Pristav. Bu nə hadisədir? Həmzə. A,a,ay ağa, vallah bu oğlan evimizə oğurluğa gəlib (C.Cabbarlı); Səfər. A-a-ay ağa! Qız heç o-o-o-otaqda yoxdur (C.Cabbarlı);Heyrətdən gözləri genişləndi, kəkələdi:-O...o...ora baxın! Ora baxın! (F.Eyvazlı).

Samit səslərin pauzalarla verilməsi: Məsələn: Bu yollara yaxşı bələd olan faytonçu kəkələməyə başladı:-V....vallah, ta...ta...tanımıram, amma de...de.... deyəsən, b-böyük adamdı, arvadıynan T...t...Tiflisə gedir (F.Eyvazlı); Əlqissə, axşamçağı pristav gəldi. Müvasilətindən bir az müqəddəm kəndlidən birisi qışqıra-qışqıra, dili dolaşa-dolaşa : p,p,p, pristav ağa g,g,gəlir!-deyə cəmaətin vahiməsini son mərtəbəyə yetirdi (Ü.Hacıbəyov); Qafar. Zalımın qızı neylədin? Nabat. Mə,mə,mə,mə....Qafar. Qoyun kimi niyə mələyirsən? Dillənsənə. Nabat.S.s.s.s.s. Sən kəndə getməmişdin? (S.Rüstəm).

Hecaların təkrarı: Qafar. Adə, sən kimsən? Əli. Bə,bə,bə,bə...Qafar. Adə, lal deyilsən ki... Sən kimsən,hə? Əli.Mə,mə,mə,mə... Qafar.Səndə mələyirsən,hə? Əli. Mə-ə-mə, mə...mən mənəm. Qafar. Mənimlə iş düzəlmir, axı de görüm kimsən, kim? Əli. He,he,heh,heç kim. Qafar...cavab ver, yoxsa bu saat öldürərəm səni. Əli. Çi, çi, çi, Çimnaz xanım özü bilir. Qafar...Necə yəni söz vermişik? Əli.

Mə,mə,mə,mə,mən...Qafar. Çərənləmə. Mən ölmüşəm ki, sən mənim arvadıma məhəbbət elan eləyirsən? Əli. Yo,yo-yox...Na-Na-Na-Nabat yaxşı bilir,soruş ondan...mə,mə,mə. Qafar. hamı mənim düşmənimmiş ki...Əli.Vay... öldüm... vay... bo-boğuldum (S.Rüstəm); Hamısı ilə bir-bir halalllaşdı, soluxan gözləri qapıda axır sözü bu oldu: -Ramiz...Ra...miz (H.Abbaszadə. Leyla xala gözləyirdi).

Ayrı-ayrı sözlərin təkrarı: Sədr sürücünü Məcnun adlı bir oğlanla əvəz etdi...–Demək, adın Məcnundur?–Bəli, Məcnundur. Necə bəyəm?...–Heç...elə-belə (C.Gözəlov.Yol ayrıcında söhbət"); Sərsəm əlindəki məktubu bir də nəzərdən keçirib soruşdu:–Kənkan olmusanmı? –Kənkan?–Bəli, bəli, kənkan!...Sərsəmov bir az fikirləşəndən sonra soruşdu:–Boyaqçı olmusanmı?–Boyaqçı? –Bəli, bəli, boyaqçı.–Olmamışam.–Gözlərin necə görür?–Pis görmür. –Pis görmür deyəndə, yəni, necə görür?-Sən necə görürsən, mən də elə. (C.Gözəlov, "Sərsəmin sərsəm yazıları"); Qorxmazov. Yaxşı, get, Nadiri çağır. Dəmirov. Nadiri? Yox, yox, qorxuram. Qorxmazov. Qorxursan, nə olub, adə? Dəmirov. Dilim gəlmir. Nadir, Nadir bayaq, Nadir. Nadir bayaq! Qorxmazov. Ay əclaf, sonra, sonra...Dəmirov. Sonra, sonra Nadir...bayaq Nadir...Qorxmazov. Dillən, nankor, dillən! Dəmirov. Bayaq Nadir, bayaq Nadir, işçiləri başına yığıb yavaşdan danışırdı (S.Rüstəm.Gəldi-gedər"); Hacı müəllim sizə zəng-zad çalmayıb, elə bil çalmalı idi. – Hansı Hacı, a bala, kəprətiv Hacımı, toy Hacımı, Şahniyarov Hacımı, bizim qazağın Hacısımı əskikdi.–Bizim məzəmli Bakıda işləyən əmim Hacı...–Hə, hə, Şəmilov Hacı (V.Nəsib, "Uzundərə"); Sən qorxaqsan, simicsən! Sən...Sən.... (F.Eyvazlı, "Qaçaq Kərəm").

Nitq qüsurlarından biri də nitq tutulmalarıdır. Nitq tutulmaları da kəkələmənin bir növü olub, insanın hal-əhvalı, psixi vəziyyəii ilə əlaqədardır.Bədii ədəbiyyatda nitq tutulmaları özünü göstərir. Məsələn: Nemət düyməni basdı....Sürəyya. Aha...Demək, mən demək istə....Yox, demək, mən demək, yaxşı çıxmadı. Dayan, hə...Deməli...ıhı, ıhı... (öskürür). Demək, mən demək istəyirəm ki...Bu gün ayın 5-idir. İyunun.65-ci il...Demək, sən almısan maqnitofon (Anar, "Beşmərtəbəli evin altıncı mərtəbəsi"); Bizim kənddə Mürsəl adlı bir yaşı kişi vardı. Sizdən yaxşı olmasın....Hə....Deyirəm bizim kənddə...Bizim kənddə Mürsəl adında....Hə...dediyim o Mürsəl kişi çox qiyamət bir bağban idi....(Ə.Əylisli, "Yaz havası").

Bəzən kəkələmə sərxoş adamın dili ilə nitq tutulması kimi göstərilir. Məsələn: Altay evə sərxoş gələndə yenə qapını Şəhla xanım açdı...Altayın ağzı söz tutmurdu...–Nurulla...kişini....öldürmək...lazımdır...o mənə...dünən...köçəri....köçəri quş dedi (A.Babayev, "Yalan).

Bədii ədəbiyyatda sevinc halları da kəkələmə ilə göstərilir. Bəhmən Nərgizin ata-anasına yaxınlaşdı və nəfəs çatmayan adamlar kimi səsləndi:–Balam...bunlar...bizi....Sözünün dalını gətirə bilmədi. Sevincinin həddi-hüdud yox idi (A.Babayev, "Ayrılıq").

Fonoqrafik vasitələr çoxfunksiyalı hadisəni ifadə etdiyi üçün onların tipləri sözün orfoqrafik yenidən qurulması üsulu kimi təsnif olunur. Fonetik normalardan kənara çıxmaları ekstralinqvistik və dildaxili normalara ayırmaq olar.

Nitq qüsurlarından biri söz-parazitlərdən və ya səs-parazitlərdən istifadə edilməsidir. Danışan şəxs bəzən sürətli danışığa malik olmadıqda, yaxud fikir tam aydın olmadıqda mənalı nitq parçaları arasında mənaya malik olmayan xüsusi səsləri və ya səs birləşmələrini işlədir. Fikrin dvamını düşünüb gətirmək üçün əslində fasilə edilir, lakin diqqəti daha çox çəkən fasilədənsə "eee", "hmmm" və s. buna bənzər səslərin davamlı təkrarından da çox halda istifadə edilir ki, tədqiqatçılar bunu səs-parazitlər adlandırırlar. Bu formadan istifadə də obrazın xarakterini açmaq üçün mühüm vasitələrdəndir. Söz parazitlərə aid: Sədr İsrafil ağaya sözünün axırını deməyə imkan vermədi:–Vot, vot! Madam, qan düşmənisiniz, bəs nə üçün bu vaxta kimi onunla haqq-hesabı kəsməmisiniz? Dondukov-Korsakov əsas mətləbə keçdi: –Vot, vot! Qafqazın təsərrüfatını Ümumrusiya bazarına daha sıx qovuşdurmaq laımdır (F.Eyvazlı, "Qaçaq Kərəm").

Nitqin düzgün işlədilməsi üçün söz-parazitləri tədqiq edən O.Mankeviç söz-parazitlərlə yanaşı, səs-parazitləri də ayırır və bunlara e-e-e, m-m-m, a-a-a kimi səsləri aid edir [Манкевич: 2024].Lazımı sözü tapmaqda çətinlik çəkəndə bu səslərdən istifadə olunur. Əslində bunlar fonetik kəkələmə hesab olunur.

Göstərilən nitq tutulmaları, nitq qüsurları müəyyən fasilələrlə, pauzalarla ifadə olunur ki, bunlar tərəddüd və xezitasiya pauzaları adlanır və bir-birindən fərqlidirlər. Onlar nitqin yaranmasının daxili və xarici tərəflərini müəyyən edirlər. Tərəddüd-şübhə, qətiyyətsizlik və ya başqa sözlə, deyiliş prosesində danışan şəxsin nitqində yaranan çətinliklərdir ki, nitqə tərəddüd pauzaları şəklində daxil olur.Tərəddüd pauzaları psixolinqvistik dil (orfoepik, leksik, leksik-semantik və qrammatik) və sosiolinqvistk faktorlarla yaranır.Xezitasiya pauzaları isə ünsiyyət prosesinin informasiya axınında bilərəkdən edilən fasilədir ki, xarici və daxili faktorlarla əhatələnir.Xezitasiya pauzaları həmsöhbətlər arasında əlaqə kanalının hərəkətini təmin edərək kommunikativ funksiyanı icra edir; danışana imkan verir ki, ifadənin semantik, sintaktik və motorlu quruluşunu planlaşdırmağa zaman qazansın, nitqin yarnmasının bütün mərhələlərində korreksiyaya və nəzarətə imkan verir, həmsöhbətlə ünsiyyətin qurulmasına kömək edir və nitq çətinliklərini maskalayır. Hər iki pauza növü nitq prosesinin daxili və xarici tərəflərini üzə çıxarır.

Xezitasiya pauzaları isə disflunitorlarla ifadə olunur. Dilçilərin çoxu hesab edir ki, "söz parazitlər" fərdin lazımi lüğət ehtiyatına malik olmamasından irəli gəlir. Belə ki, bu sözlər sanki dəb xatirinə hansı mənadasa yaranır və hətta zəngin lüğət fonduna malik insanlar tərəfindən də edilir. Lazımı sözü tapmaqda çətinlik çəkəndə bu səslərdən istifadə olunur. Əslində bunlar fonetik kəkələmə hesab olunur. Əslində bunlar fonetik kəkələmə hesab olunur. Belə səslər dislfunitorlar adlanır. Məsələn: Molla...Ömrümdə bu qədər kitaba baxmışam, belə çətin işə hələ rast gəlməmişəm....Ancaq...m...m...böyük cin gərək ki, naz edir (N.Nərimanov);

Qulu. Ağa, fayton hazırdır. Şamdan. Səndə...m...m...bir, ya iki abbası pul olarmı? Qulu. Var, var, hərgah istəyirsinizsə, çox verim Şamdan. M...m...yaxşı, varınsa, bir manat ver(N.Nərimanov); yaxud Dəmir! Yaxud Zəbi! Hər biri bir məna daşıyır. Bu mənalara xələl gətirmək, e-e-e...sizi necə başa salım, e-e-e....mm...estetik gözəlliyə...xələl gətirmək deməkdir, Koxa qardaş!...Çox qəribədir. M-mm, demək istəyirəm ki, çox maraqlıdır; M-m-m...Yox, deyəsən səni başa sala bilməyəcəyəm, Koxa qardaş. (İ.Hüseynov. Kollu Koxa). Azərbaycanca: –**Eee..**.sizin...in adınız...deyib kəkələdi. Mən tezcə dilləndim.–Həsrət...Mənim adım Həsrətdir.....– Da, da, Xasret. Yadımdan qaçmışdı...Eee...bela yoxx...Yadımdan çik...çikmışo-di (V.Babanlı.Həyat bizi sınayır").

Uşaq dilinin şirinliyini, pəltəkliyini üzə çıxarmaq məqsədilə uşaqların danışığı fonetik kəkələmə ilə qeyd olunur. Məsələn: Balaca bir oğlan dili dolaşa-dolaşa futbol oynayan uşaqlara Qədiri göstərib dedi:– Qədiy, Qədiy gəlir (Z.Xəli, "Çıraq nənənin nağılları"); Yoldaş Nöqtələrov Kifayəti qucağına götürür: – Denən: Yol-daş Nöq-tə-lər-ov!-Da-as Nööləyy-ooo-deyə körpə qırıq-qırıq təkrar edir (S.Dağlı, "Vergülağa və Absatəli");...radio dinləyicilərinə tanış olmayan bir səs qırıq-qırıq kəkələməyə başladı – Dddiq....diqqət!...insan hıqqıltısına oxşar təəccüblü səslər eşidildi: Havv... havv... haaqq... məəə... azz... cann... vvaav... mməəl...bbb...ğını...aax...axxş...haaavv...ttut...aaağaaaacc...ddum..bbult....vızzz...kk k...üll...əsss...aağ..ss..ahh...onn...ddooqq...zz...ddrcəə...isti...oollaaa...nəhayət mura-dına çatmışdı. Uşaq anadangəlmə pəltək idi (S.Dağlı, "Bir arzunun əks-sədası).;

Burada bir məsələyə münasibətimizi bildirmək istəyirik. Nitq qüsurları müxtəlif səbəblərdən yarandığından onların tələffüz formaları da fərqlidir. Bu fərqli tələffüz formalarının yaratdığı təsir və münasibət müxtəlif olduğundan onların yazıda ifadəsinin xüsusi işarələrlə--qrafonlarla dəqiq ifadəsi də əhəmiyyət kəsb edir. İ.V.Arnold yazır: "Bütün bu vasitələr üslubi cəhətdən ona görə zəruridir ki, oxucuya məlumat versin ki, şifahi nitqdə prosodik elementlərlə, səsin tonu ilə, pauzalarla, bəzi səslərin uzanması və ya qoşalaşması ilə nə ifadə olunur"[Арнольд: 1981, c.225].

–Vətəndaş Lifşits, siz mənim sualıma cavab vermədiniz.–Ha-aa-n-su alı-nıza?– Hara gedirdüz?Xa-a-al-amgilə...–Neçə nömrəli evdə? –Yüz sə-ək-sə-ən do-oo-oquz...Mə-əə-ni ha-ra-a apa-rır-sınız? –Cəhənnəmə! (C.Əmirov, "Qara Volqa"); Məcburi həyətə sürüklənən İbrahimin nə dediyini indilərdə, ümumiyyətlə başa düşmək çətin idi, anlaşılan dayanmadan dediyi yalnız bu sözlər idi: – Qızımın sümüklərini də yandırıblar, onu sizə vermərəm, verrrrməərəəəəm, veeeerrməəəəəəə...Kişinin səsi getdikcə həyətin daha uzaq kümcündən gəliri (Müşfiqxan, "Sonuncu hədiyyə").

Nitq qüsurlarının, o cümlədən kəkələmənin meydana çıxması səbəbləri kimi, onların yaranma mexanizmi də fərqlidir; belə ki, kəkələmənin yaranma səbəbləri funksional və orqanikdir. Birinci halda həyəcan, əsəb səbəb olub, tez-tez müşayiət olunur. İkinci halda xəstəlik əsas səbəb olur. Kəkələmənin formaları da rəngarəngdir: 1) səslərin, hecaların, sözlərin və cümlələrin təkrarı; 2) səslərin

uzadılması; 3) sözlərin işlədilməməsi; 4) eşidilə biləcək və ya səssiz şəkildə tələffüzə ara vermə; 5) sözləri həyəcan ilə demək və s. Bütün bu səbəb və formalar kəkələmənin təzahüründə də fərqliliklər yaradır ki, bunların hər birinin yazıda əks etdirilməsi ən çətin hallardandır. Bunun üçün qrafik işarələr də kifayət etmir. Lakin eyni kəkələmə formasının müxtəlif formalarla verilməsi ilə də razılaşmaq olmaz. Belə ki, eyni kəkələmə forması üçün gah sadalanan nöqtələr, gah defis işarələrindən istifadə edilməsi, ya da bir səsin bir-birində ayrılmadan təkrar şəklində verilməsi məqbul ola bilməz, çünki defis söz parçalarının birləşdirilməsi, sadalanan nöqtələr fasilə edilməsini(xüsusən də ellipsisi) ifadə edir. Səslərin bir-birindən ayrılmadan verilməsi isə arada fasilənin olmamasını göstərir.

Nitq səhvlərinə kobud (senzuradan kənar sözlər) və kobud olmayan səhvlər aid edilir. Kobud olmayan səhvlər ciddi olmayan qaydanın, üslubiyyatın qaydalarına aiddir. Çox kobud, xoşagəlməz səhvlər lyapsuslar adlanır, kobud olmayan səhvlər nəzərə alınmayan, qeyri-dəqiq, xəta kimi işlənən sözlərdir.

ƏDƏBİYYAT

1. Eminli H. Nitqin yaranması və inkişafı prosesinin neyrolinqvistik təhlili. AR, B., 2008, 25 s.

2. Ухтомский А.А. Лабиальность как условие срочности и координирования нервных актов.Л,,1959.

3.Давиденков С.Н. Материалы к учению об афазиях. Харьков, 1915; Кожевников А.Я. Речь 5апреля 1874 г. Сб. Московс. унив., с.1-59, 1874; Кононова Е.П. Тр.Инст.мозга,5, М., стр.97, 1940; Кукуев А.А. Журн. Невропатолог.и психатр.,55, 12, стр.890, 1955.;Лурия А.Р. в клинич. Электрофизиологии.Тез.доклад.Л., стр.78, 1955.

4.Аствацатуров В.М. Клинические и экспериментальные психологические исследоавания речевой функции. Дисс. Спб, 1908; Тонгоногий И.М. Науч. сессия, посвященная вопросам клинич.электрофизиологии.Тез.докл.Л., стр.78, 1955

5. Левина Р.Е. Опыт изучения неговорящих детей (алаликов).М., 1951; Лурия А.Р. Высшие корковые функции человека.М., 1962.

6. Орфинская В.К. Формы моторной алалии, связанные с избирательной неполноценностью речедвигательного анализатора. В кн: Физиологические механизмы нарушений речи. АН СССР, «Наука», Ленинградское отделение, Л., 1967, с.129-136 (208 с.)

7.Вессарт О.В. Лингвистические факторы, провоцирующие возникновение запинок при заикании. Экспреиментальное исследование и методы реабибилитации. В кн. Заикание. Москва, 1986, 132 с.

8. Куршев В.А. Заикание. М., «Медицина», 1973, 158 с.

9..Хватцев М.Е. Логопедия. Гос-ое учебно-педагогическое изд-во министерства просвещения РСФСР М., 1959,с.213.

10. İbrahimov A, Xəlilov H. Sağlam övlad, düzgün tərbiyə, təmiz nitq. Bakı "Misri", 2004.

11.Dəmirçizadə Ə.Azərbaycan dilinin üslubiyyatı. Azərtədrisnəşr,1962,270 s..

12. Лебединский М.С., Янович Ф.П. и Платонова Г.П. В сб.:Вопросы психотерапии,4, стр.215, 1960.

13. Мясищев В.Н. Личность и неврозы. Л., 1960.

14. Шкловский. В.М. и Иовлев Б.В. К вопросу о кожнохгальванической ективности при заикании. В кн.:Физиологические механизмы нарушений речи. «Наука», Ленинградское отделение, Л., 1967, с.165-171.(210 с.)

15. Axundov A. Bədii dildə tipiklik və surətlərin dili. S.M.Kirov adına ADU-nun elmi əsərləri, Dil və ədəbiyyat seriyası, 1977№2, s.3-10(s.4).

16. Емельянова Л.Л. Типы и функции графона в английской художественной речи. АР канд. Одесса, 1977, с.21(23с.).

17. Шмелева Т.В. Сегментация высказывания и слова.- Известия Южного федерального университета. Серия филологические науки, 2007 №1-2, с. 104-117.

18. Манкевич О. Речевая паразитология или что такое слова-паразиты? Школа жизни.ру.2024

19. Арнольд И.В. Стилистика современного английского яхыка. Л., «Просвещение», 1981, 281 .

POSSIBILITIES OF EXPLOITING THE FLAWS OF PURPOSE IN OTHER LITERATURE

Quality defects can arise from various sources: from the main body, from subsequent traumas, from autism, or even from bilingualism. These defects are not only due to physiology-psychology, but a certain level of emotion and the human's temporary state also play a role here. Indeed, dealing with flawed people is one of the main issues facing our society. In this case, various people come together: psychologists, philosophers, philosophers, linguists, etc. They become busy. Various reasons and types of nature's lagging behind from overall development are identified. Stuttering, which is a type of clarity, occurs in situations such as voice prolongation and speech retention. Writers take advantage of grammatical flaws to typify the story and sometimes to create a comical effect. However, failure to properly recognize the expression of grammatical defects in written language makes accurate understanding difficult.

Key words: *speech defects, aphasia, stuttering, speech delays, voice strain, voice-interference.*

ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ НЕДОСТАТКОВ В ОПРЕДЕЛЕНИИ ЦЕЛИ, ВСТРЕЧАЮЩИХСЯ В ДРУГИХ ЛИТЕРАТУРНЫХ ПРОИЗВЕДЕНИЯХ.

РЕЗЮМЕ

Дефекты качества речи могут возникать по различным причинам: из-за особенностей организма, последующих травм, аутизма или даже двуязычия. Эти дефекты обусловлены не только физиологическими и психологическими факторами, но и определенным уровнем эмоций, а также временным состоянием человека. Действительно, работа с людьми, имеющими недостатки, является одной из главных проблем, стоящих перед нашим обществом. В этом случае объединяются различные специалисты: психологи, философы, лингвисты и т. д. Они активно работают. Выявляются различные причины и типы отставания в развитии. Заикание, являющееся одним из видов нарушения ясности речи, возникает в таких ситуациях, как затягивание голоса и задержка речи. Писатели используют грамматические ошибки для типизации повествования, а иногда и для создания комического эффекта. Однако неспособность правильно распознать выражение грамматических дефектов в письменной речи затрудняет точное понимание.

Ключевые слова: дефекты речи, афазия, заикание, задержка речи, напряжение голоса, голосовые помехи.